# Əməyin təşkilində bağçanın valideynlərlə əlbir işi və uşaq bağçası müdirinin əmək tərbiyəsinə nəzarəti

**Tamilla Rzayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** tamilla.rzazade47@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** əmək, valideyn, uşaq, uşaq bağçası
**Ключевые слова:** труд, родитель, ребенок, детский сад
**Key words:** labor, parent, child, kindergarten

BMT-nin "Təhsil əsri" elan etdiyi XXI əsrdə cəmiyyətin bütün sahələrində ciddi dəyişikliklər baş verməkdədir. Hazırda cəmiyyətin inkişaf tempi sürətlənir, siyasi, sosial-iqtisadi seçim imkanları genişlənir, iqtisadiyyatın inkişafı ilə bərabər rəqabət də güclənir. Bu da iqtisadiyyatda sadə əmək məşğulluğu sahələrini tədricən azaldır, peşə ixtisasının artırılması və yenidənhazırlanmasını tələb edən struktur və məzmun dəyişiklikləri baş verir, biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun kadr hazırlığı mühüm məna kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində əmək tərbiyəsi uşaqları əmək fəaliyyətinə müsbət münasibət formalaşdıran, onlarda işləməyə arzu və istək yaradan çox vacib bir prosesdir. Daha dəqiq desək, "... məktəbəqədər təhsilin məqsədi uşağın fiziki, psixi, emosional, sosial və intellektual potensialının inkişafı üçün şərait yaratmaq, uşaqların sadə əmək vərdişlərinə yiyələnməsini təmin etmək, uşaqlarda məntiqi və yaradıcı təfəkkürün ilkin elementlərini formalaşdırmaq və istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını təmin etməkdən ibarətdir".

İnsan fəaliyyəti sistemində *əmək* xüsusi yer tutur. Əmək fəaliyyəti son nəticədə özünün məhsuldarlığı ilə fərqlənir. Məhz buna görə də əməyi müəyyən ictimai-faydalı, maddi və ya ideal məhsullar istehsalına yönəldilmiş fəaliyyət kimi qəbul edirlər. Əmək fəaliyyəti təkcə insanın maddi və mənəvi tələbatlarını ödəməyə xidmət etmir, o, eyni zamanda insanın bir şəxsiyyət kimi formalaşmasında aparıcı rol oynayır.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi yalnız uşaq bağçasında deyil, ev şəraitində də davam etməlidir. Uşaqların məsuliyyətli və işgüzar olması üçün pedaqoq hər bir yaş qrupunda əmək tərbiyəsinin təşkilinin əsas metodlarını bilməlidir. Uşaqların uğurlu və hərtərəfli inkişafı üçün valideynlərə də məsləhətlər vermək pedaqoqun vəzifələrinə aiddir. Əmək tərbiyəsinin düzgün təşkili üçün pedaqoq valideyn iclasları təşkil etməli və valideynləri uşaqların yaş xüsusiyyətləri ilə tanış edərək onlarla hansı işlərin aparılmasını tövsiyə etməlidirlər. O, həmçinin uşaqların ailə şəraiti ilə tanış olmalı, valideynləri pedaqoji şuraya dəvət etməli, valideynlərin iştirakı ilə əmək tərbiyəsinə aid tədbirlər keçirməli, dairəvi masa təşkil etməli, müxtəlif mövzularda təqdimatlar etməli, onların bir-biri ilə əlaqə saxlamasına və qarlı inamına nail olmalıdır. Ən vacib şərt səyləri birləşdirərək tam şəxsiyyət yetişdirməkdir.

Məktəbəqədər təhsilin ümumi məqsədi müasir cəmiyyətdə yaşamaq üçün zəruri olan fiziki, sosial, davranış, intellektual və əmək vərdişlərinin inkişafıdır. Üstünlük biliklərin qazanılmasına deyil, uşaqların təşəbbüskarlığının inkişafına, sosial kompetensiyaların inkişafına verilir. Məktəbəqədər təhsil müəssisələrinin işi uşaqları həyatda uğur qazanmağa,

müxtəlif fəaliyyət növlərinin vərdişlərini inkişaf etdirməyə, bilik qazanmağa səy göstərməyi formalaşdırmaq və müstəqil düşüncə tərzinə yiyələnməyə istiqamətlənir. Uşaqlar çevik vərdişlər əldə etməli, intellektual və nitq inkişafının müəyyən səviyyəsinə çatmalı, şəkil çəkmək və təsviri fəaliyyətin başqa növlərini mənimsəməlidirlər. Tərbiyəçinin vəzifəsi inkişafetdirici mühit yaratmaq, bu mühitdə hər bir uşağın inkişafına dəstək vermək, uşaqların davranış və psixologiyasını öyrənmək və asudə vaxtlarda müstəqil olaraq əmək fəaliyyətini təşkil etməkdən ibarətdir.

Uşaq bağçasının müdiri uşaqlarla aparılan bütün fəaliyyət növlərinə nəzarət etməlidir. O, əmək tərbiyəsi üzrə aparılan işlərdə pedaqoqlara dəstək olmalı, onlar üçün şərait yaratmalı və istiqamət verməlidir. Kadrların əmək tərbiyəsi üzrə peşəkarlığının yüksəldilməsi üçün vaxtaşırı onların təcrübəsini müzakirə etməli, seminarlar keçirməli, təcrübəni yaymaq məqsədilə başqa uşaq bağçalarının nümayəndələrini dəvət etməli, dairəvi masa ətrafında müzakirələr aparmalıdır. Uşaq bağçasının müdiri bu tədbirləri keçirməklə onları daha həvəslə işləməyə sövq edir və stimullaşdırır. Beləliklə, tərbiyəçi-pedaqoqların xüsusi kurslara göndərilməsinə ehtiyac qalmır.

İşçilərin rəğbətləndirilməsi sisteminə aşağıdakıları aid etmək olar: ilin yekununa görə rəğbətləndirmə, uşaqların məktəbə hazırlanmasında olan uğurlarına görə rəğbətləndirmə, uşaqların tərbiyəsində və təlimində yaxşı nəticələr göstərməsinə görə rəğbətləndirmə, təntənəli günlərlə bağlı rəğbətləndirmə və s. Mütəmadi rəğbətləndirmələr müdirdən xüsusi hazırlıq və müəyyən prinsiplərə riayət etməyi tələb edir. Rəğbətləndirmə ədalətli və əmək uğurlarına uyğun olmalıdır.

Müxtəlif yaşlı uşaqların əmək tərbiyəsi üzrə bacarıq və vərdişlərinin təhlilini, ailələrdə əmək tərbiyəsinin vəziyyəti və valideynlərlə söhbətlər apararaq müdir çatışmayan və zəruri olan məsələləri illik planında əks etdirməlidir.

Uşaq bağçasının müdiri və metodist həyətyanı sahədə və qrup otağında əmək tərbiyəsi üzrə şərait yaradarkən valideynlərin də arzu və təşəbbüslərini dəyərlən-dirərək onları bu işə cəlb etməlidir: güllərin və tərəvəzlərin əkilməsi, qum üzərindəki oyunlar üçün qum sahəsinin yaradılması, əmək təlimi üçün lazım olan inventarın təmir edilməsi, heyvan saxlamaq üçün evcik, quşlar üçün dənlik hazırlanması, qrupların pəncərəsində güllərin və bəzi tərəvəzlərin əkilməsi üçün dipcəklərin qoyulması və s. Bütün bunlar uşaqların əli çatan yerdə qoyulmalı və sanitar-gigiyenik tələblərə cavab verməlidir.

Əmək prosesində uşaqlar praktik olaraq ətrafda gördüklərinin əlamətlərini dərk edir, bitkilərin böyüməsi və dəyişməsini müşahidə edir, heyvanların yaşam tərzi ilə maraqlanır.

**Məqalənin aktuallığı.** Məktəbəqədər təhsil müəssisələrində əmək tərbiyəsi uşaqları əmək fəaliyyətinə münasibətini formalaşdıran, onları işləməyə ruhlandıran çox vacib bir prosesdir. Məqalədə də belə mühüm bir məsələyə həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müxtəlif yaşlı uşaqların əmək tərbiyəsi üzrə bacarıq və vərdişlərinin təhlili verilir, ailələrdə əmək tərbiyəsinin vəziyyəti və valideynlərlə söhbətlər aparılması üzrə məktəbəqədər tərbiyə müəssisəsi rəhbərləri ilə metodistlərin görəcəyi işlər araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər tərbiyə müəssisələrinin rəhbərləri, metodistlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009, 80 s.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. “Azərbaycan müəllimi” qəzeti. 6 fevral, 2009-cu il/ Xalq, 8 fevral, 2009.
3. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli kurikulum)//. Kurikulum, № 1, 2005.
4. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası” 24 oktyabr 2013-cü il tarixli sərəncamı. “Xalq qəzeti”, 25 oktyabr 2013-cü il.
5. Məktəbəqədər təhsilin kurikulumu. Bakı, 2012.

**Т. Рзаева**

## Совместная работа родителей и детского сада в организации труда и контроль директора детского сада над трудовым воспитанием

## Резюме

В наше время занятие родителей своей карьерой, отсутствие одного или обоих родителей, миграционные вопросы в связи с работой, сожительство детей разных браков в одной семье, уменьшение общения с ровесниками и старшими и другие требуют чувствительного отношения к воспитанию в детском садике.

**T. Rzayeva**

## Control of gardening with parent and child labor in the organization of labor

## Summary

Goal is that parents are involved in careers, lack of one or both parents, migration related issues, living in a single family of children of different marriages, decline in communication with older people and others. requires a more sensitive approach to child-care issues in the kindergarten.

**Redaksiyaya daxil olub:**16.05.2019